# AĞIL İLƏ UCALAR İNSAN

Aytəkin Mehmanqızı... Bu şairənin şeirləri ilə təsadüfən çox dəyərli bir dostum, Azərbaycan Yazıçılar Birliyində tədbirlərin birində tanış olur. Sonradan onun şeirlərinə, çıxışlarına televiziyada və sosial şəbəkələrdə rast gəlir və onun şeirlərini çox bəyənir. Və mənə onun haqqında söyləyir ki, bu şairənin bir kitabını oxudum. Sanki Nizami Gəncəvini yaradıcılığına qayıtdı. Sonradan həmin kitabı dostum oxumaq üçün mənə verir. Elə onun yaradıcılığı ilə tanışlıq buradan başlayır. Doğrusunu deyim ki, onun şeirlərini oxuyarkən xeyli düşüncələrə daldım və gördüm ki, Aytəkin xanım çağdaş poeziyamızın fərqli yazarlarından biridir.

Məsələ burasındadır ki, o, öz şeirlərini klassik şeir üslubunda, çox az yazılan məsnəvi, rübai və aforizm-hikmətli sözlərlə yazmışdır. Dahi şairimiz Nizami Gəncəvi bütün şeirlərini məsnəvi janrında yazmışdır. Nizamidən sonra məsnəvi nümunələri demək olar ki, son dövrlərə qədər işlənmişdir, indi də ara-sıra elə nümunələr yazılır. Bu gün Aytəkin Mehmanqızının poeziyasında məsnəvi janrı müasir dövrümüz üçün daha mükəmməl görünür. Düşünürəm ki, şairənim özü demişkən nəsihət və aforizmlər hər bir dövr üçün klassik və aktualdır. Şairənin mövzu dairəsi də genişdir. Yazdığı şeirlərin hamısı məsnəvidi və bu məsnəvilər öyüd, nəsihət xarakterli məsnəvilərdir. Onların içində 20-ə qədər rəvayət yüksək səviyyədə nəzmə çəkilmişdi. Bu barədə Nizami Gəncəvi yazır:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim dilə.
Oxudum, oxudum sonra da vardım,
Hər gizli xəzinədən bir dürr qopardım...

Sözügedəm şairənin şeirlərində bütün mövzular məhz öyüd-nəsihətdir, başqa sözlə desək, didaktiv materialdır. Onun öyüd-nəsihətlərini Nizamiyə bənzədənlərə şairə özü belə cavab vermişdir:

-Nizami deyiləm, Aytəkinəm mən,
Onun çeşməsindən çox su içmişəm.
O qədər oxuyub sevdim ki, onu,
Onun tək yazmaq oldu bu eşqin sonu.

Hikmətlər yazıram yazan zaman mən,
Dinləyənlər desin doğrudan əhsən!
Yaz, yarat Aytəkin, yaz-yarat sən də,
Səni sındırmasın heç nadan bəndə.

Yazımda Nizami avazı vardır,
Bunu anlayanlar arif dostlardır...
Qələmi əlindən qoyma nə badə,
Arifi anlamaz nadan bir bəndə.

Aytəkin xanımın bu şeirini oxuyanda burada yenə mənim yadıma klassiklərimiz düşdü. Böyük qəzəlxan Əliağa Vahid yazırdı:

Deyərdim əhli-qələm,
Vahid əfv edərsə məni,
Böyük Füzulimizin yadigarı
mən özüməm.

Görünür, Aytəkin xanım da Nizami poeziyasının çeşməsindən çox su içmişdir ki, belə məzumələr yazmaq xanım şairəmizin payına düşüb. Nə deyim, xeyir-dua verib, yolun açıq olsun, qələmin iti, uğurların davamlı olsun Aytəkin xanım...

Aytəkin Mehmanqızı Bakı şəhərində doğulub-böyüsə də, əslən Qarabağın, bütün türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərindəndir. O, Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Özü deyir ki, orada mən Əliyar Qarabağlı, Yusif Seyidov, Tofiq Hacıyev, Nizami Cəfərov, Şamil Qurbanov, Ağa Laçınlı kimi gözəl, savadlı, alim və professorlardan dərs almışam. Bəlkə də bu janrda yazmağımda müqəddəs insanların savadlarından əlavə insanlıq və xeyirxahlıq mücəssəməsi olan bu şəxsrin böyük təsiri olmuşdur. Onun şeirlərində yalnız Azərbaycan xalqına məxsus milli-mənəvi dəyərlər, milli-mentalitet, adət-ənənə, böyüyə hörmət, ataya-anaya sevgi, Vətəni torpağı sevmək, onlara hörmət etmək ön plana çəkilir. Bu isə nəticədə gəlib didaktik-əxlaqi, tərbiyəvi xüsusiyyətlərin təbliğinə çıxarır. Bütün bu xüsusiyyətlər şairənin müxtəlif mövzularda yazdığə şeirlərin içindən keçir. Aytəkin xanımın vətənpərvərlik mövzusunda yazdığı "Vətən", "Azərbaycan", "Şuşam" şeirlərinə fikir versək, burada öz xalqını, torpağını və Vətənini böyük məhəbbətlə sevən bir el qızının, qəlbi Vətən eşqiylə döyünən şairənin obrazını görərik. "Azərbaycan" şeirində yazır:

Dünyada bir yer var Azərbaycandır adı,
Ağızlardan getməz nemətlərinin dadı.
Hara getsəm belə sənsən Vətənim,
Səninlə döyünür bu təmiz qəlbim.
Sən Odlar Yurdusan, gözəl diyarsan,
Tanrıdan bizlərə bir yadigarsan...
Xəzər bəzəyindir, Qarabağ gözün,
Özünə çəkirsən dünyanı gözün.
Qoy Tanrım qorusun səni nəzərdən,
Döyünən qəlbimsən sinəmdə Vətən.

Yaxud "Şuşam" adlı bir şeirinə baxsaq:

Sənin hər dağına qurbanam Şuşam,
Hüsnünə, dağına heyranam Şuşam.
İsa bulağına, Cıdır düzünə,
Yenidən qovuşdum, çox şükür Şuşam.

Aytəkin xanımın "Azərbaycan övladıyam" şeirində oxuyuruq:

El qızı deyirlər adıma hərdən,
Allah ayırmasın məni elimdən.
Xalqım dərd görməsin heç zaman mənim,
Elimin dərdi də dərdidir mənim.

Şairin maraqlı məsnəvilərindən biri də cənab Ali Baş Komandanımız, hörmətli Prezidentimiz İlham Əliyevə yazdığı təbrikdir:

Qələmimi alıb bu gün əlimə,
Ürək sözlərimi deyirəm Sizə.
Bizim qürur yeri, həm də fəxrimiz,
Heydər oğlu İlham Prezidentimiz.
Təbrik göndərirəm xalqım adından,
Ey dahi şəxsiyyət, ey gözəl insan.

Bu mənsumədə də şairə Prezidentə ümumxalq sevgisini, məhəbbətini bədii-poetik ifadələrlə təqdim edir. Belə bədii çalarlar isə şeirin bədii emossional qüvvəsini artırır. Həm Prezidentə, həm də müəllifə hörmət qazandırır.

Aytəkin xanımın 44 günlük müharibənin qəhrəmanı, adı dillər əzbəri olmuş Xudayar Yusofova həsr olunmuş şeiri də diqqətəlayiqdir. Bu şeirdə müəllif sanki torpaqlarımızın azadlığı yolunda şəhid olmuş bütün Vətən oğullarını yad edir:

Elin gözəl oğlu Xudayar bala,
Ömrünü bizlərə pay verən bala.
Sənintək oğullar canından keçdi,
Bizləri yaşatdı, özü isə getdi...
Sən ellər oğlusan, səsin hər yerdə,
Mahnın əzbər olub bu gün dillərdə.
Gül üzlü çöhrəndə qəlbimizdədir,
Xudayar ölməyib, o, bizimlədir.
Səsin gəlir hərdən sanki hər yerdən,
Deyirsən: yaşasın, yaşasın, yaşasın Vətən!

Şairənin bütün şeirlərində təsvir və tərənnümlə bərabər sanki ağzı dualı anaların, ağbirçəklərin, ağsaqqalların duaları, öyüd-nəsihətləri insanı müşayiət edir. Oxucu fikirləşir: bu istedadlı şairədə gözəl ifadələr, hikmətlər baş alıb gedir. Onun "Uşaq" şeirində oxuyuruq:

Mələk ürəyidir uşaq ürəyi,
Kiçiciq qəlbində arzu diləyi.
O gül baxışıyla mələktək baxr,
Gözləri Günəştək üzə nur saçar.
Uşaqsız qoymasın Allah heç evi,
Uşaqdır hər evin əsl bəzəyi.

Aytəkin xanımın bu kitabda Allah və Allaha inamla bağlı bir neçə şeiri verilib. Bu şeirlərdən çıxan nəticə budur ki, insan harada olursa-olsun Allahı unutmamalı, ona inanmalı, ona güvənməlidir. Allah hər şeyi görür, insafı da, isafsizlığı da. Yetər ki, insan insafsız, vicdansız olmasın. İnsaf əldən gedəndə tez Allahı yada salsın, onda hər şey yoluna düşər.

Əlimdən tutursan yıxılanda mən,
Qoymursan heç yerdə, heç vaxt əyiləm.
Mənim ömür dostum, vəfalı şahım,
Ey böyük, ey uca gözəl Allahım!
Hər yerdə köməyim olmusan mənim,
Mənim ürək dostum, könül həmdəmim.

Fani dünya, dünyanın fəzasızlığı haqqında onlarca şairlərimizin çeşidli şeirləri, yazıları var. A.Mehmanqızının "Dünya" şeirində isə o, sanki dünyaya asi olur. Ona etirazını bildirir; bu dünyanın insanları niyə belə zalım, paxıl, namərd olur axı:



Dünya, niyə axı, niyə beləsən?
Mərdləri qovaraq namərd edirsən,
Mərdin dəyərini namərdə verib,
Haqsızlıq edirsən, çox incidirsən.

-Son nəticədə isə şairə:

Deyirlər səbir edin, düzələr dünya,
Nə qədər səbir edək, düzəlmir axı.
Səbirin sonu elə xeyirdir deyə,
İnsan ömrü boyu səbir etməz axı.

Aytəkin Mehmanqızının məsnəvilərində insanlıq və nadanqlıq, dostluq, xeyirxahlıq, dosta məhəbbət və dost xəyanəti, düşmənə nifrət, bir sözlə insan məxsus olan bütün müsbət və mənfi xüsusiyyətlər təsvir olunur. Müsbət xüsusiyyətlər öyüd-nəsihət yolu ilə oxucuya çatdırılır. Mənfi xüsusiyyətlərə insan oğlu heç vaxt baş əyməsin deyir. Bu isə müəllifi öz oxucusuna daha da sevdirir.

Kitabda şairənin təmsilləri, mənzum rəvayətləri də yer almışdır. Bəlkə də bu rəvayət və təmsillərin nə vaxtsa nağıl formasında yazılmış və deyilmişdir. Lakin onlara Aytəkin xanım yeni nəfəs verərək mənzum, həm də nəsihət formasında nəzmə alınmışdır. Bu cəhətdən "Sərçə" mənzuməsi maraqlıdır:

Bir gün kiçik bir sərçə yuva qurmaq istəyir,
Çoxlu çör-çöp gətirib, özüyçün yuva tikir.
Kənardan yuvasına baxıb sonra sevinir,
Göylərdə sevincindən sərçə sanki rəqs edir.
Sərçənin bu sevinci çox da uzun çəkmədi,
Qəflətən güclü külək hər yeri silkələdi.
Sərçənin yuvasını uçuraraq məhv etdi,
Sərçə fəryad qoparıb üsyan etdi Allaha.
Yuvamı uçurmusan, sənə inam yox daha,
Deyib şikayət etdi, gileyləndi Allaha.
Uca Allahımızsa çərçəni çox sevdiyin,
Onu incitmədiyin açıqlayıb söyləyir:
Sərçəyə belə deyir: yuvana ilan gəlmiş,
Səni sancmaq istərmiş.
Mənsə bunu tez gördüm sənə kömək gönərdim,
Küləyə mən əs dedim, yuvanı sök söylədim.
İndi özün düşün sən, səni sevmirəmmi mən?

"Şah və Kəniz", "Qarışqa və ayı" mənzumələri də belə maraqlı və əxlaqi-didaktik mənalarla dolu gözəl əsərlərdir.

Atəkin Mehmanqızı yaradıcılığının mühüm bir qolunu aforizmlər-kikmətli sözlər təşkil edir. Şairə özü bu haqda belə deyir: "Bütün şeirlərimi, aforizmlərimi yazarkən xalqımızın, elimizin milli və mənəvi dəyərlərini, ənənələrini, maraqlarını düşünərək, onları hər şeirimdə nəzərə alaraq, əsas tutaraq, onları qoruyaraq yazmışam. Mən bu hikmətli sözləri yazarkən sanki uca Allahım başımın üstündə dayanaraq onları mənə diqtə edir və mən bu ilahi sözləri kağıza köçürürəm. Ona görə də mən Allahıma həmişə minnətdaram. Bu cəhətdən şairənin "Ağıl" şeirinə nəzər salaq:

Ağıllı insanlar yaşamaz rahat,
Onlarçün çətindir həmişə həyat.
Ağıllı başlarçün narahat həyat,
Ağılsız başlara baş əyir heyhat!

Ağıldır insanın şöhrəti, şanı,
Ağılsız qoymasın Tanrı insanı,
Ağıl naxış ilə əlbir olanda,
İnsan xoşbəxt olar doğrudan onda.

Həyat özü elə böyük məktəbdir,
Ən gözəl dərsləri o keçəcəkdir.
Həyatdan dərs alan kamil bir insan,
Çox bilər adi bir təhsil alandan.

Azərbaycan ədəbiyyatında daha çox aforizm yazan şairlərdən biri dahi Səməd Vurğundur. Aforizmlər bəzən bütöv bir bənd, bəzən isə iki misra, bir beytdən ibarət olur. S.Vurğunun aforizmləri daha çox mətn daxilində olur. Sözügedən şairəmizin aforizm və hikmətli sözləri isə tamamilə ayrı təqdim olunur. Yenə də qeyd edək ki, bu hikmətli sözlər sırf öyüd-nəsihət xarakteri daşıyır. Əslində yuxarıda haqqında danışdığımız məsnəvi şeirlərdə də öyüd-nəsihət və didaktika, əxlaqi-mənəvi dəyərlər üstünlük təşkil edir. Cəmiyyətimizin indiki təbəqələrinin parçalandığı, haqqın nahaqqa verildiyi, kasıbın malının yeyildiyi, haqqının tapdalandığı, özbaşınalığın, dələduzluğun, fırıldaqçılığın baş alıb getdiyi indiki zamanda belə öyüd-nəsihətlərin, didaktik-əxlaqi dəyərlərin yada salınması çox vacibdir. Klassik şairimiz S.Ə.Şirvani "Oğluma nəsihət" şeirini yazanda məgər elə öz oğlumu nəzərdə tutmuşdur? Əlbətə yox. Uzun illər bu əsər orta məktəb dərsliklərində özünə yer almışdır. Bizə belə gəlir ki, bu gün məktəblərimizdə aşağıdakı aforizmlərdən əxlaqi-didaktik material kimi istifadə olunmalıdır:

Haqq səsidir səsim göylərdə mənim,
Haqdan güclü silah heç vaxt görmədim.
Haqlı olmuşdusa insan əzəldən,
Haqq onu qoruyar zalım bəndədən.

* * *

Nankora bal belə yedirtsən də bil,
Sənə "sağ ol"sözün söyləyən deyil.

* * *

Namərdin and yeri olsa da Allah,
Sən onun vədinə inanma heç vaxt.

* * *

Yalnız ağıl ilə ucalar insan,
Ağıl hədiyyədir uca Allahdan.

* * *

Üzülmə heç nəyə, səbr et hər zaman,
Səbrlə çatarmış arzuya insan...

A. Mehmanqızının yeni kitabında belə bədii dəyərə malik aforizm və hikmətli sözlər çoxdur. Mən çox böyük cəsarətlə bu kitabı" müdriklik xəzinəsi" adlandırardım. Müəllifə bundan sonra da yeni yaradıcılıq uğurları arzulayıram.

***Tariyel ABBASLI,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***AYB-nin üzvü,***
***prezident təqaüdçüsü.***